Respublika.- 2025.- 30 may (№109).- S.16.

QARS

# "Bir millət, iki dövlət"



**Azərbaycanın Qarsdakı Baş Konsulluğunun təşkilatçılığıyla ölkəmizin Müstəqillik Gününün 107-ci ildönümünə həsr olunmuş təntənəli tədbir keçirilib.**

Tədbirdə Qars valisi Ziya Polat, bələdiyyə sədri Ötüken Şenger, baş prokuror Mehmet Çepni, Qafqaz Universitetinin rektorluğunun nümayəndələri və bir sıra qeyri-hökumət təşkilatlarının rəhbərləri iştirak ediblər.

Tədbir iştirakçıları ilk öncə qardaş ölkələrin dövlətçiliyinin formalaşmasında və inkişafında xidmətləri olan Azərbaycan və Türkiyə övladlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Mərasimdə çıxış edən **Azərbaycanın Qarsdakı baş konsulu Zamin Əliyev** iki qardaş ölkənin dövlətçiliyinin inkişafında Ümummilli Lider Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün tarixi rolunu qeyd edərək deyib: "Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində ilk demokratik dövlət olub. Nisbətən qısa, 23 ay davam edən tarixi dövrdə Azərbaycan tamhüquqlu dövlət idarəetmə strukturlarını formalaşdırmağa və ölkəmizin dünya miqyasında tanınması istiqamətində addımlar atmağa nail olub".

Diplomatik missiyanın rəhbəri Türkiyə ilə Azərbaycan arasında Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına



əsaslanan sıx qardaşlıq əlaqələrinə diqqət çəkib, o cümlədən M.K.Atatürkün "Azərbaycanın sevinci Türkiyənin sevinci, kədəri isə bizim kədərimizdir" sözlərini xatırladıb.

Baş konsul Azərbaycanın mədəniyyət paytaxtında liderlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsinin xüsusi əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, Azərbaycan ilə Türkiyə arasında əməkdaşlıq üçün güclü stimul ölkələrimizin rəhbərlərinin şəxsi dostluq əlaqələri və dərin qarşılıqlı hörmətin əlamətidir. Müasir Azərbaycan uğurla inkişaf edən, universal nüfuza malik dövlətdir.





Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz 44 gün ərzində respublikanın işğal olunmuş ərazilərini azad edib, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi bərpa edilib.

Diplomat ölkələrimiz arasında 2024-cü ilin sonunadək 8 milyard dollara çatan ticarət dövriyyəsinin intensiv artımına da diqqət çəkib: "Əminəm ki, bu, son hədd deyil. Tərəflər qarşılıqlı ticarət dövriyyəsini ildə 15 milyard dollara çatdırmağı hədəfləyirlər". Baş konsul Bakı və Ankaranın iştirak etdiyi



uğurlu təşəbbüs və layihələrdən də danışıb, Orta Dəhlizin inkişafını və İğdır-Naxçıvan qaz kəmərinin açılışını misal çəkib. O, həmçinin Qars-Naxçıvan dəmir yolu layihəsinə xüsusi diqqət yetirib.

Tədbirdə çıxış edən **Qars valisi Ziya Polat** Azərbaycan və Türkiyə arasında sağlam düşüncə və ürəklə həyata keçirilən dostluq münasibətlərinə diqqət çəkib.

Qarabağ Zəfərini xatırladan Z.Polat bu tarixi qələbənin bütün türk dünyası üçün ümid işığı olduğunu bildirib. Türk dünyasını birləşdirəcək Orta Dəhlizin yaxın gələcəkdə imzalanacağına inandığını ifadə edən vali bu dəhlizin Türkiyədən Çinə qədər ortaq dil, mədəniyyət və tarix paylaşan coğrafiyalara böyük töhfə verəcəyini bildirib. Vali "Sənə edilən bizə, bizə edilən də sənə edilir" deyərək iki ölkə arasındakı həmrəylikdən bəhs edib. Qarabağda Zəfər Bayrağının bütün türk dünyasının duaları və dəstəyi ilə dalğalandığını xatırladan Z.Polat bu birliyin daha da güclənəcəyinə əmin olduğunu deyib.

Tədbir bayram konserti ilə davam edib.

**Esmira YAZKAN ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**